Xalq qəzeti.- 2019.- 27 dekabr.- S.10.

*Əhməd bəy Ağaoğlu ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınmışdır. Ümumxalq mənafeyinin qorunması naminə çoxşaxəli, gərgin və məhsuldar fəaliyyəti ərzində, o, parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni və sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsində diqqətəlayiq xidmətlər göstərmişdir. Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəlməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran geniş mövzu dairəsinə malik dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir.*

*"Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2019-cu il tarixli sərəncamından*

# Əhməd bəy Ağaoğlunun epistolyar irsi

Bu probleme toxunmazdan əvvəl klassik ədəbiyyatda geniş yayılmış, forma baxımından fərqli və diqqətçəkən epistolyar janrla bağlı vacib bir məqama nəzər salmağa ehtiyac vardır. Məsələ bundadır ki, bədii-publisistik məziyyətlərinə, avtobioqrafik məzmuna, mahiyyətinə görə epistolyar janr bəzən xatirə, memuar, yaxud gündəliklə eyniləşdirilir, ya da əksinə, bu üslublar arasında ciddi fərqlər axtarılır. Dövrünün məmur hərc-mərcliyi, əyanların rüşvətxorluğu ucbatından adına kəsilmiş təqaüdü ala bilməməsindən şikayətlənən Məhəmməd Füzulinin digər adı "Nişançı paşaya məktub" olan "Şikayətnamə"si, Şah İsmayıl Xətainin faydalı məsləhət və nəsihətləri, əməyə rəğbəti, dostluğa sədaqəti, böyüklərə hörməti və ədaləti təbliğ və vəsf edən "Dəhnamə"si, çağdaş milli fəlsəfi düşüncəmizin təməli sayıla biləcək Mirzə Fətəli Axundzadənin "Kəmalüddövlə məktubları", eləcə də fanatizmi, ətaləti, cəhaləti, mövhumatı tənqid atəşinə tutan Sultan Məcid .Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani", Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları", Mirzə Cəlilin "Qəbirdən məktub"u və sair kimi əsərlər ədəbiyyatımızda epistolyar janrın mükəmməl nümunələridir. Həmin əsərlər dövrün ictimai-siyasi, sosial münasibətlərini, müəlliflərin yaradıclılğını, məramını, ideya istiqamətini, ədəbi-bədii mühitini əks etdirən qiymətli və etibarlı mənbələrdir. Bu qəbildən bədii sənət nümunələrini–"məktubları", əlbəttə ki, Mirzə Fətəli Axundovun Həsən bəy Zərdabiyə, Mirzə Yusif xana, yaxud da oğlu Rəşid bəyə ünvanladığı, Mirzə Cəlilin Məmmədəli Sidqiyə, həyat yoldaşı Həmidə xanıma, Əliheydər Qarayevə yazdığı, Üzeyir Hacıbəylinin qardaşı Ceyhun Hacıbəyliyə, Hüseynqulu Sarabskiyə, Məməd Səid Ordubadiyə, Ərtoğrul Cavidin Üzeyir bəyə göndərdiyi məktublarla nə məzmun, nə də forma baxımından eyniləşdirmək olmaz, hərçənd ki, həmin sənədlər də ailə-məişət qayğıları, problemləri ilə yanaşı, müəllifin bədii zövqü, istedadı, yaradıcılıq imkanları, dövrün ictimai-siyasi, ədəbi-mədəni həyat barədə mühakimə yürütməyə əsas verir.

Bu baxımdan Azərbaycanın və Türkiyənin ictimai-siyasi, ədəbi-mədəni tarixində fədakar və bənzərsiz fəaliyyəti ilə dərin iz qoymuş Əhməd bəy Ağaoğlunun yaradıcılığında mühüm yer tutan epistolyar irs diqqəti çəkir və böyük maraq doğurur. Əhməd bəy Ağaolunun ömür yolunu, həyata baxışını, yaradıcılığındakı təkamül prosesini, görüşlərini, dövrünün tanınmış şəxsləri ilə münasibətlərini, əlaqə və əməkdaşlığını hərtərəfli və dərindən öyrənmək, təhlil etmək və dəyərləndirmək üçün ilk növbədə, onun məktublarının məzmununa və qələmə alındığı dövrə görə təsnifatını aparmaq lazımdır. Əgər Malta məktublarını, belə demək mümkünsə, Əhməd bəy Ağaoğlu yazışmalarının ən təsirlisi, dramatik və maraqlısı hesab etsək, o zaman müəllifin məktublarını belə dövrləşdirmək olar:

-Malta sürgününədək qələmə alınanlar;
- sürgün dövründə yazılanlar;
-sürgün dövründən sonra qələmə alınanlar.

Eyni zamanda, araşdırmaların daha sanballı və səmərəli olması üçün məktubların mövzusuna, ünvanlandığı şəxslərə görə də aşağıdakı kimi qruplaşdırılması məqsədəuyğundur:

- ailə üzvlərinə, qohumlarına ünvanlanan ;
- silahdaşlarına, dostlarına yazılan;
- görkəmli partiya və dövlət xadimlərinə, generallara, səfirlərə göndərilən;
- nəşriyyat və mətbu orqanların redaksiyalarına yazılan məktublar.

Əhməd bəy Ağaoğlunun Malta sürgününədək və ondan sonra qələmə aldığı məktubların qismən öyrənildiyi qənaətindəyik. Sürgünədək yazdığı məktublar Əhməd bəyin hansı mühitdə yetişdiyi, necə formalaşdığı, qətiyyəti, prinsipləri haqqında müəyyən təsəvvür yaradır. 1904-cü ildə (14 sentyabr) "Kaspi"də dərc olunan "Dostlara məktublardan" adlı yazısı da dövrün aktual problemlərinə həsr olunmuşdur. Hələ tələbəlik illərindən tanış olduğu və sonradan bu münasibətin sarsılmaz dostluğa, əməl və əqidə silahdaşına çevrildiyi Əli bəy Hüseynzadə ilə yazışmaları həm Əhməd bəyin, həm də Əli bəyin fəaliyyətinə, bu fəaliyyətin istiqamətlərinə müəyyən dərəcədə işıq salır. "Həyat" qəzetinin redaksiyasında yaranmış bir münaqişədən hiddətlənən və ailəsi ilə bir neçə günlüyə Mərdəkana köçən Əhməd bəy Ağaoğlunun 1905-ci ilin oktyabr ayında Əli bəy Hüseynzadəyə "Sevgili qardaşım" – deyərək başladığı bir məktubda yazır: "Mən bundan sonra "Həyat" müdirliyindən xaric olub "Həyat" ilə heç bir əlaqəm yoxdur". Əhməd bəyin belə prinsipial, dəyişməz mövqeyini bəyan etməsi onun inadkar xarakterindən xəbər verir.1905-ci ildə Əhməd bəyin fransız dilində yazdığı və dostuna ünvanladığı məktubu öz silahdaşına bir tövsiyə də adlandırmaq olar. "Həyat" qəzetini erməni millətçiləri ilə ideoloji mübarizənin tribunasına çevirən çılğın təbiətli Əhməd bəy" (Vilayət Quliyev. Əhməd Ağaoğlu-Əlimərdan bəy Topçubaşov: problemli dostluq. "525-ci qəzet", 23 iyun 2017) yazırdı: "Sevgili Əli bəy, nələr edirsən? Günlük bir qəzeti idarə etmək asandırmı? Canım dostum, səndən sadəcə, ermənilərə çox üz verməməyini rica edirəm…Çoxlu elmi dil istifadə etmək oxucuları yoracaqdır, bundan qaçmaq lazımdır. Qəzet üçün material baxımından narahat olmağa gərək yoxdur, sizə yetərli qədər


احمد بكك تلغرافى
آغا اوغلى احمد بك
آنقره ٨ تموز
قارص مبعوثى آغا اوغلى احمد

mövzu göndərəcəyəm".

Malta sürgünündən sonra Türkiyədə məskunlaşan Əhməd bəy Ağaoğlu qızğın fəaliyyətə başlayır, Türkiyənin ədəbi-mədəni, ictimai-siyasi həyatında yaxından və fəal iştirak edir. Böyük dövlət xadimi və mütəfəkkirin həmin dövrdə qələmə aldığı məktublar Əhməd bəy Ağaoğlunun Türkiyə həyatının bütün sahələrinin daha dəqiq və dərindən öyrənilməsi üçün ciddi mənbədir. Dostu Əli bəyə yazdığı bir məktub Əhməd bəyin Türkiyədə böyük ümid və arzularla yaşadığını göstərir: "Bəzi yerlərdən İstanbul məbusluğuna namizədliyimi irəli sürməyim tövsiyə olunur. Paşa həzrətləri də məsləhət görür. Amma mən hələ qərar verməmişəm. İstanbuldan millət vəkili seçilməyəcəyimə əmin olduğum üçün tərəddüd edirəm və sizin fikrinizi bilmək istərdim. Nə düşünürsünüz? Şansım nə qədərdir? Namizədliyimi irəli sürsəm kömək edəcəyinizi vəd edirsinizmi? Verdiyim suallara səmimi və açıq cavablarınızı gözləyirəm".

1922-ci ildə Əli bəy Hüseynzadəyə ünvanlandığı başqa bir məktub, həm iki böyük tarixi şəxsiyyət arasındakı münasibətlərin səmimiliyindən, bir-birlərinə sədaqətindən, həm də Əhməd bəy Ağaoğlunun ailə qayğısından, türk qızlarını azad və savadlı görmək istəyindən xəbər verir: "Əziz qardaşım, Əli bəy. İndiyə qədər sənə məktub yazmadığımın günah olduğunu çox yaxşı başa düşürəm. Lakin içərisində olduğum hadisələr və üzərimə götürdüyüm vəzifənin ağırlığı mənə dostlarımı düşünmək üçün nə vaxt, nə də rahatlıq verir…Sürəyya və Tezer xanımı sənə övlad olmaq üçün göndərirəm. Təhsillərini natamam buraxmamaları üçün İstanbula göndərmək məcburiyyətində qaldım və səndən başqa etimad edəcək yer tapa bilmədiyim üçün sənə və Ethiye xanıma zəhmət vermək durumunda qaldım. Bu məktubla sənə Hilali-ahmer vasitəsilə 350 lirə pul göndərirəm…Artıq uşaqlar sənindir. Məni bilirsən… Mən türk qızlarının sərbəst olmalarını, həyata qarışmalarını və ictimai fəaliyyətdə iştirak etmələrini arzu edirəm…Artıq onları sizə, sizi isə Allaha əmanət edirəm". Əli bəy Hüseynzadənin də əqidə, amal, ailə dostluna ünvanlandığı məktublar da eyni sədaqət, eyni səmimiyyətlə yazılmışdır.

Əhməd bəy Ağaoğlunun 1921-ci ilin mayında, Malta əsirliyindən azad olunduqdan dərhal sonra İtaliyanın Torrento şəhərindən Azərbaycan sovet hökumətinin başçısı Nəriman Nərimanova 1921-ci ildə ünvanlandığı məktub ("Kommunist" qəzeti 19 iyun, №109) da təsirli və düşündürücüdür. Sürgün həyatının məhrumiyyətləri, oradan müşahidə etdikləri Əhməd bəydə Qərb dünyasına münasibətdə sanki bir dəyişiklik yaratmış, onun duyğu və düşüncələrində bir tərəddüd, şübhələr doğurmuşdu. Məktubunda uzun müddətdə, qoca vaxtında cismani, maddi və mənəvi əziyyətlər çəkdiyini, təhqirlər və istehzalar gördüyünü qeyd edən Əhməd bəy nə qədər qəribə olsa da, bəşəriyyətin xilas yolunu Rusiyanın seçdiyi yolda görür və məktubunu belə bitirir: "Möhtərəm doktor! Əgər mənim nəzəriyyə və imanımın səmimiliyinə qabilincə əhəmiyyət verə bildiyinizdən indi layiqli mövqeni işğal etdiyiniz işin qələbəsindən əgər bir yararlıq göstərəcəyimə inanarsınızsa yalnız əcələ etmək (tələsmək) üçün bir sözünüzü bəkləyirəm.

Açıq söyləyəlim, məni bu işə vadar edən xüsusi bir səbəb də var. Mənim 51 yaşım vardır. Qocalığım yaxınlaşır. Bir neçə illik qüvvət qalmışdır. Mən istərdim ki, bu son illərimi doğma Vətənimə ithaf edim, son çağlarımı orada keçirim və nə gizlədim Vətənimin torpağında dəfn olunum. Məni Ankaraya cəlb edirlər və orada mənə geniş fəaliyyət imkanları verirlər, hərgah Vətənim imtina edərsə, mən oraya gedəcəyəm. Fəqət mən Bakıya tələsirəm, orada bir saat yaşayım və ölüm! Mən orada 5 çocuq yetişdirmişəm və arzu edərdim ki, onlar da Vətənimə xidmət etsinlər. Əgər mənim təklifimi qəbul etməyi lazım bilərsiniz mən zikr olunmuş təbliğat ilə işğal edib (məşğul olub) və xalq maarifini yeni əsaslar üzrə qurmaqda çalışaram.

Sizə ehtiram bəsləyən: Əhməd Ağayev."

N. Nərimanovdan müsbət cavab gəlir və o, Əhməd bəyi Bakıya yüksək məqama dəvət edir. Əhməd bəy isə artıq bu zaman harada qalacağı barədə qərar vermişdi. Bu barədə professor Vilayət Quliyev yazır: "Türk tədqiqatçısı, "Ağaoğlu Ahmet bey" kitabının müəllifi (Türk Tarix Qurumunun nəşri, Ankara, 1999) Fəxri Sakal yazır: "O dövrün İstanbulu digər ittihadçılar üçün olduğu kimi, Ağaoğlu üçün də təhlükəli idi. Bunu Behbud xan hadisəsində də görməkdəyik. Üstəlik, Ağaoğlu üçün iki səbəb birdən təhlükə mənbəyi olmaqdadır: birincisi Behbud xan kimi Azərbaycan əsilli olması, digəri isə ittihadçı damğasını daşımasıdır. Ayrıca yeganə sərvəti fikirləri və qələmi olan bir Azərbaycan köçkünü İstanbulda bir məmurluq, yaxud mətbuat vəzifəsi almasa, həyatını necə təmin edə bilərdi? O vəzifəni alması isə həmin günlərin İstanbulunda qeyri-mümkün idi. Bu səbəblərə görə İstanbulda qala bilməzdi. Azərbaycana getməsi isə əslində, mümkün bir iş idi".

Yenə də Fəxri Sakalın, çox təəssüf ki, mənbəyini göstərmədiyi qaynaqlar əsasında yazdığına görə, Əhməd bəy Azərbaycan Sovet Cümhuriyyəti dövlət başçısı, əski dostu Nərimanovun onu Azərbaycana dəvətinə verdiyi cavab məktubunda ilə üç səbəbdən təklifi qəbul etməyəcəyini bildirmişdi:

"Pək əziz və möhtərəm Nəriman bəyəfəndi!

Köhnə bir dost üçün göstərdiyiniz böyük ehtirama qarşı çox minnətdar və mütəşəkkirəm. Fəqət üç türlü düşüncə bu ehtiramdan yararlanmağa mane olur.

1. Təmsil etdiyiniz fikir sisteminə qatılmamaqdayam.

2. Türklər üçün qurtuluş imkanının təkcə Osmanlı türklüyündə olduğu haqda sizə də məlum olan fikir və qənaətimdə qalmaqdayam.

3. Məni əsarətdən qurtararaq yenidən can və varlıq vermiş Ankaraya getməyin mənim üçün bir namus borcu olduğunu düşünməkdəyəm.

Bu üç düşüncə məni doğulduğum yer olan Azərbaycana gəlməkdən və təklif olunan yüksək məqamı qəbul etməkdən daşındırır. Sizin kimi hər şeydən əvvəl açıqlıq və doğruluğa qiymət verən bir şəxsin məni məzur görəcəyindən şübhə etmirəm. Türklük bölünmə qəbul etməyən bir tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə müqəddəsdir, mübarəkdir!"

Əhməd bəy Ağaoğlunun Türkiyədən ən müxtəlif ünvanlara yazdığı məktublar onun həyatının və fəaliyyətinin "canlı şahidi"dir. Əhməd bəyin 1924-cü ilin martın 14-də yazdığı məktubundan bəlli olur ki, o, İstanbulda "Yeni Kafkasya" jurnalının çap olunmasına, 1925-ci ilin martın 17-də məktubda mühacirlərə yardım ayrılmasına kömək etmişdir.

1926-cı ildə Atatürkə ünvanlandığı hesabat məktubunda Əhməd bəy hakimiyyətdə olan Cümhuriyyət Xalq Firqəsini sərt tənqid edir. Həmin məktubda Əhməd bəy partiyanın nüfuzdan düşməsinə, hakimiyyət funksionerlərinin vəzifələrindən sui-istifadə etmələrinə səbəb kimi ölkədə təkpartiyalı idarəetmənin olduğunu göstərirdi. Və ölkədə demokratik proseslərin gələcək inkişafı üçün çoxpartiyalı sistemə keçməyin vacibliyini vurğulayırdı. Əhməd bəy hakim partiyadan olan millət vəkillərinin vəkilliklə bərabər dövlət şirkətlərinə rəhbərlik etmələrinə də qarşı idi. Bütün bunlar Türkiyədə ölkənin ictimai-siyasi, iqtisadi və mədəni sahələrində inkişafını ləngidirdi. Əhməd bəy isə bu halla barışmırdı.

Əhməd bəy Ağaoğlunun nəvəsi, tanınmış tərcüməçi, istedadlı rəssam və heykəltəraş Təktaş Ağaoğlunun İstanbuldakı mənzilində babasının həyat və fəaliyyəti ilə bağlı sənədləri – qəzet, jurnalları, əlyazmaları, dəftər və kitabları saf-çürük edərkən bir qəzet kəsiyi diqqətimizi çəkmişdi. Təəssüf ki, Ağaoğlunun ictimaiyyətə müraciəti dərc olunan həmin qəzet kəsiyində nə nəşrin adı, nə də tarixi göstərilmişdir. Lakin redaksiyaya ünvanlanan məktubun mətni ağaoğluşünaslıq üçün böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, onu olduğu kimi oxucuların nəzərinə çatdırırıq:

**"Ahmed beyin telgrafı**
**Ağaoğlu Ahmed bey**
**Ankara, 8 Temmuz**

Hiç bir zaman ermeni firarisiyle alaka ve münasebette bulanmadım.

Bütün cihana karşı alnım açıktır. Mufassal mektubum postadadır. Bu gibi neşriyat ile efkâr-ı umumiyeyi taglit etmek isteyenlerin mâhiyetleri öteden beri malûmdur. Benim gibi dört kere ermeniler tarafından idâma mahkûm edilmiş ve ermeniler yüzünden Malta zindanlarında senelerce inlemiş olan erbâb-ı nâmûsa çatmanın pek pahalıya mâl olacağı görülecektir. Nâmûsa hürmet, yalnız erbab-ı nâmûsa mahsus bir sıfattır.

**Kars mebusu: Ağaoğlu Ahmed".**

**(ardı var)**

***Abid Tahirli,***
***filologiya elmləri doktoru***